# HƏYATIMDAN YAZILANLAR

**Oxuculara**

Bu gün Azərbaycan xalqı öz tarixinin ən məsul dövrünü yaşayır, dövlət müstəqilliyini möhkəmləndirmək, onu dönməz, daimi və əbədi xoşbəxtliyə çevirmək üçün səylə çalışır, ərazi bütövlüyünün bərpası yolunda məqsədyönlü tədbirlər həyata keçirir.

Tarix təkcə hadisələrin müəyyən xronologiya üzrə düzülməsi deyil, həm də bu hadisələrin ruhunun, mahiyyətinin açılması, insanların həmin dövrü öz duyğu və düşüncələrindən keçirərək yaşamasıdır. Bu yaşantılar isə təkcə bədii əsərlərdə yox, həm də publisistikada, xatirələrdə özünü göstərir. Bizim hər birimiz tarixin adi günlərini yaşayır və dövrümüzün ruhunu, həyatımızın nəbzini, həm də qəzetlərdə, publisistik materiallardan duymağa çalışırıq. Axı heç bir vətəndaş, ilk növbədə isə ziyalı cəmiyyətdə yaşayıb onun qayğılarından, problemlərindən kənarda qala bilməz. O, mütləq bu problemlərə öz münasibətini bildirir. Vaxtaşırı dil, ədəbiyyat, incəsənət, təhsil, mənəviyyat problemləri ilə bağlı mətbuatda çoxsaylı dərc etdirdiyim məqalə və müsahibələr də mənim öz axarı ilə gedən hadisələrə münasibətimdir.

Tale elə gətirib ki, gözümü açandan həmişə elmi-yaradıcı mühitdə olmuşam. İnsana mənəvi cəhətdən çox şey verən bu mühitə doğru açılan cığırı, atılan ilk addımları adam heç vaxt yaddaşından çıxara bilmir. Qəzetdə çıxan ilk məqalə, tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş




toplantıda ilk məruzə, nəhəng yazıçılarla keçirilən görüşdə ilk həyəcanlı çıxış məhz insanı elm və yaradıcılıq dünyasına aparan addımlardandır. Bütün bunlar barədə ona görə söz açıram ki, bu kitaba daxil etdiyim materialların, xatirələrin arasında ilk qələm təcrübələrim də vardır.

Müxtəlif vaxtlarda qələmə alınmış ayrı-ayrı materialları, xatirələri gözdən keçirərkən bir daha bu qənaətə gəldim ki, hər bir yazı öz dövrünün ruhunu, düşüncə tərzini, həmin dövrün təfəkkürrünü əks etdirir. Ona görə də yazıları toplayarkən onlara əl gəzdirməyi, yenidən işləməyi, hətta müəyyən cəhətdən bu günlə səsləşməyən nüansları, səhifələri ixtisar etməyi məqbul saymadım. Kitaba daxil edilmiş bu yazıların hər birinə öz dövrünün ab-havası çöküb.

Uzun müddət çalışdığım təhsil ocaqlarında, Azərbaycan Radio və Televiziyasında, Milli Məclisdə və cəmiyyətdə görkəmli yazıçılar və alimlərlə ünsiyyətdə olmuş, onların bəziləri haqqında xatirə-məqalələr çap etdirmişəm. Bundan başqa, Azərbaycanın bir sıra görkəmli elm adamları, Rusiyanın, İranın, Türkiyənin mədəniyyət xadimləri ilə görüşlərim, bir sıra qəzet, jurnal əməkdaşları ilə müsahibələrim, alimlərlə mübahisələrim də olub. Bütün bunlar əksəriyyət etibarı ilə mətbuatda öz izlərini saxlayıb. Çünki həqiqətən, bizim dövrümüzdə problemləri publisistik materialların vasitəsilə aşkarlamaq və xalqın ictimai şüuruna bu yolla nüfuz etməkdən təsirli vasitə yoxdur.

Biz bu yazıları tarixi xronologiyaya görə deyil, mövzulara görə qruplaşdırmağa üstünlük vermişik. Buna baxmayaraq, kitabda verilmiş materiallar toplusuna, səhifələrə həm də müəyyən mənada, öz həyatımın kiçik bir salnaməsi kimi də baxıram.

Əziz oxucu! Belə hesab edirik ki, kitabdakı yazılar, hansı mövzuya toxunmasından asılı olmayaraq, öz dövrünün məhsuludur. Deməli, bu kitabı vərəqləməklə biz həm dünənimizə bağlanacaq, həm də sabahımız haqqında düşünə biləcəyik.

***Nizami XUDİYEV***
***15 noyabr 2017-ci il***